

# Dəmir necə ayaq açdı

GƏNCLİK

BAKI 1967

## DƏMİRLİ DAŞLAR

Başı həmişə qarlı olan qocaman bir dağın altı dəmirli daşlarla dolu idi. Dağın sinəsi ilə axan çay, torpağı ova-ova dəmirli daşlara çatmışdı. Yaz vaxtı dağın qarı əriyəndə çayın suyu bulandı və artdı. Çay ləpələri ilə dəmirli daşları döyəcləyərək acıqlı-acıqlı dedi:

-Tənbəlsiniz! Tay-tuşlarınız yer şumlayır, havada uçur, dənizdə üzür, amma siz min illərdir ki, burda yatırsınız.

-Sən öz yolunla get, bizlə işin olmasın,-deyə dəmirli daşlar qaşqabağını tökdü, çay sakitləşəndə isə yenidən yuxuya getdilər.

Bir dəfə boz ayı dağın ətəyində özünə yuva düzəltmək üçün yeri eşməyə başladı. Ancaq nə qədər çalışdısa caynaqları daşlara batmadı.

-O boyda dağ çayının bizə gücü çatmır, bu əyripəncə istəyir ki, bizi yerimizdən tərpətsin,-deyə dəmirli daşlar gülüşdü. Ayı donquldana-donquldana çıxıb getdi.

Bu əhvalatdan xeyli keçmişdi ki, dağa cürbəcür maşınlar gəldi. İnsanlar dağı burğulamağa başladılar. Sonra burğulanmış yerlərə nə isə doldurub uzaqlaşdılar. Dəmirli daşlar elə zənn edirdi ki, insanların onlara gücü çatmadı. Elə bunun üçün də çıxıb getdilər. Ancaq bu dəfə dəmirli daşlar heç gülməyə də vaxt tapmadı. Partlayış səsləri ucaldı...Qocaman dağ uçulub töküldü. Dəmirli daşlar dərələrə səpələndi. İri çalovu olan böyük bir maşın onları yığıb yük avtomobillərinə doldurmağa başladı. Dəmirli daşlar bərk qorxmuşdu, dilləri söz tutmurdu. Axır ki, onlardan biri üzünü maşına tutub, kəkələyə-kəkələyə dedi:

-Qa... qardaş, bu nə işdir bi... bizim başımıza gətirirlər?

Çalovlu maşın dedi:

-Bəsdir, bu qədər boş-boşuna yatdınız. Pas atmısınız. İş görmək lazımdır!

-Axı, sən kimsən, ay qardaş? Bizi yığıb haraya aparırlar? - deyə dəmirli daşlar yerbəyerdən yazıq-yazıq dilləndi.

-Bir vaxt mən də sizin kimi paslı dəmir parçası idim. Məni aparıb domna sobasında əritdilər. Sonra ekskavator qayırdılar. Görürsünüzmü, işlədikcə gümüş kimi parıldayıram. Siz də mənim kimi olmaq istəyirsinizmi?

-İstəyirik, istəyirik,-deyə dəmirli daşlar sevinclə səsləndi. Yük maşını dəmir daşları təmizləyici fabrikə gətirdi. Burada onları tozdan və qumdan təmizlədilər. Sonra daş kömürlə qarışdırıb domna sobasına tökdülər.

Soba bərk qızdı, dəmirli daşlardan damcı-damcı tər axmağa başladı. Onlar əriyib su kimi başqa bir sobaya axdı.

Sobaya nasosla hava vurdular. İsti hava ərimiş metalı qaynadaraq deyirdi:

-Siz əriyib çuqun olmusunuz. Maşınların əsas hissələrini sizdən düzəltmək olmaz. Belə maşın çox davamsız olar. Gərək bu Marten sobasında sizə çoxlu hava vurulsun. Canınızda qalan kömür alışıb yansın. O zaman sizdən polad alınacaq.

Ərimiş metalı xeyli müddət Marten sobasında qaynatdılar. Onu qəliblərə tökdülər. Qəliblərdə soyuyub bərkiyən metaldan təkərlər, dişli çarxlar düzəltdilər. Fəhlələr barmaq yoğunluğunda poladdan vintlər kəsdilər. Sonra müxtəlif hissələri bu vintlərlə bir-birinə birləşdirdilər. Gözəl bir avtomobil alındı.

-Mən indi gedə bilərəmmi? - deyə təzə maşın sevincək soruşdu.

-Yox,-deyə yaşlı bir fəhlə başını tərpətdi. Sənə rezin təkər, bir də yanacaq lazımdır. Bunlar olmasa sən yerindən tərpənə bilməzsən.

Bəs maşın rezin təkəri və yanacağı haradan aldı? Bunu ikinci və üçüncü söhbətdə bilərsiniz.

## AĞACI N GÖZ YAŞLARI

Bizdən çox-çox uzaqlarda, dənizlərin o tayında Braziliya adlı bir ölkə var. Braziliya dərin çaylar və keçilməz meşələr ölkəsidir. Bu meşələr o qədər qalındır ki, əgər səyyahlar balta ilə kol-kosları qırmasalar bircə addım da ata bilməzlər. Meşədə cürbəcür vəhşi heyvanlar və nəhəng ilanlar yaşayır.

Braziliya meşələrində heveya adlı qəribə ağaclar bitir. Yerli əhali bu ağacların qabığını bıçaqla çərtib, altına vedrə qoyur. Ağacın kəsilmiş yerindən damcı-damcı şirə axıb vedrəyə süzülür. Sonra süd rəngli bu şirəni böyük teştlərə boşaldırlar. Bir neçə gündən sonra heveya şirəsinin üzündə əmələ gələn «qaymağı» hisə verib qurudurlar. Braziliyalılar heveya şirəsini «kao-oço» adlandırırlar. Bu «ağacın göz yaşı» deməkdir. Biz isə hisə verilib qurudulmuş heveya şirəsi qaymağına «kauçuk» deyirik.

Kauçukdan hazırlanmış ilk əşya sizin atıb-tutduğunuz oyuncaq topu olmuşdur.

Təxminən yüz il bundan əvvəl insanlar kauçukdan qaloş və plaş hazırlamağa başladılar. Kauçuka kükürd qatışdırıb qızdıranda rezin alınır.

İnsanlar kauçukdan müxtəlif şeylər hazırlamağı öyrənəndən sonra heveya ağacının hörməti artdı. Onu meşədən çıxarıb məhsuldar torpaqlarda əkməyə başladılar. Heveya bağları getdikcə yeni-yeni ölkələri bürüdü. Heveya ağacı başını dik tutaraq deyirdi:

-Dünyada məndən qiymətli ağac yoxdur. Mənim qabığımdan süzülən şirə olmasa, heç bir avtomobil yerindən tərpənə bilməz. Mən olmasam insanlar qaloş və plaşı nədən düzəldər?

Bu zaman külək tau-saqqız və kök-saqqız adlı kolları xışıldatdı. Onlar pıçıldaşaraq zorba heveyaya dedilər:

-Sən boş yerə lovğalanırsan, bizim kökümüzdə lap əla kauçuk var. Sən ancaq isti ölkələrdə bitirsən. Biz isə sərin yerlərdə də yaxşı məhsul veririk.

Sovet adamları bu bitkilərdən kauçuk almaq üsulunu öyrəndilər. Vətənimizdə kök-saqqız tarlaları salındı. Uzaqdakı bir zavodun bacasından çıxan tüstü qara bulud kimi kök-saqqız tarlasının üstünü aldı. Tüstü qaşqabağını tökərək kök-saqqıza dedi:

-Bax, mən Sumqayıt şəhərindəki sintetik-kauçuk zavodundan gəlirəm. Orada adamlar neft qazlarından kauçuk hazırlayırlar. Axı, sizin kökünüzdəki bir damcı kauçukla çox iş görmək olmaz. Ölkəyə çoxlu kauçuk lazımdır. Vətənimizdə ildən-ilə daha çox avtomobil, trolleybus, avtobus buraxılır.

Elə bu vaxt Bakı şin zavodunun darvazasından bir neçə yük maşını çıxdı. Bu maşınlar neft qazlarından hazırlanmış avtomobil şinləri ilə dolu idi. Dəmirli daşlardan əridilib qayrılmış maşınlar isə avtomobil zavodunun sexlərində yan-yana düzülərək rezin şinlərin yolunu səbirsizliklə gözləyirdi. Şinlə dolu maşınlar zavoda çatan kimi fəhlələr onları boşaltdılar. Təkərlərdən dördünü cərgənin başında dayanmış avtomobilə geyindirdilər. Təzə rezin təkər ona elə yaraşırdı ki!.. Sanki avtomobil ayağındakı təkərlərə baxaraq fərəhlənir və deyirdi:

-Nə gözəl ayaqqabıdır: Bununla bütün dünyanı gəzib dolanmaq olar. İndi mənə yanacaq versəniz, işləyərəm!

Uşaqlar, yəqin ki, yanacağın necə hazırlanması da sizi maraqlandırır, elə deyilmi?

Bunu siz «Qaraca göl» əhvalatından öyrənəcəksiniz.

**QARACA GÖL**

Gəlin sizə torpağın dərin qatında gizlənmiş Qaraca göl haqqında qəribə bir nağıl danışım. Əslində bu nağıl deyil, olmuş əhvalatdır. Yaşlı adamların hamısı bunu bilir. İndi siz də biləcəksiniz.

Min illər boyu Qaraca göl yerin altında gizlənib qalmışdı. İndiyədək heç kəs onun üzünü görməmişdi. Hərdən o, ləpələnir, köpüklənir və acıqlı-acıqlı deyirdi:

-Bilmirəm, niyə məni zülmətə salıblar? Əgər torpağın üstündə olsaydım, heç bilirsiniz nə işlər görərdim! Mənim hər damcım qızıldan qiymətlidir.

Bir dəfə göl yenə acıqlı-acıqlı nərildəyəndə onun üstündə o tərəf-bu tərəfə diyirlənən damcılardan biri dedi:

-Ana, qoy mən birtəhər yol tapıb yerin üzünə çıxım, işıqlı dünyadan xəbər gətirim.

Göl razılaşdı. Qaraca gölün oğlu Qara damcı özünə çətinliklə olsa da yol tapa-tapa yerin üzünə doğru qalxmağa başladı. O, yuxarı qalxdıqca başının üstündən anlaşılmaz bir gurultu gəlirdi. Qara damcı bir-iki dəfə dayanıb qulaq asdı. Ancaq

heç nə anlamadı, yenə yoluna davam etdi. Birdən Qara damcı hər tərəfdən su ilə əhatə olunduğunu gördü. O, ayağını yerə vurub, suyun üzünə qalxdı. Bura dəniz idi. Günəşin şəfəqləri köpüklü sularda oynaşır, ağ qanadlı quşlar alçaqdan uçub gedirdi. Qara damcı rahatca nəfəs alıb gülümsədi. Bu vaxt yaxınlıqdan bir gəmi keçirdi. Dənizçilərdən biri əyilib suya baxdı.

-Burada neft var!-deyə ucadan səsləndi. Gəmidəkilər bərkdən: «Burada qara qızıl var, qara qızıl!» - dedilər.

«Qara qızıl» sözü Qara damcının çox xoşuna gəldi. O, suyun üzünə yayılıb fərəhləndi. O, yerin altına, zülmət dünyaya qayıtmaq istəmirdi.

Bu əhvalatdan xeyli keçdi. Qara damcının dayandığı yerə yeddi gəmi gəldi. Uzun polad dirəkləri nəhəng çəkiclə dənizin dibinə bərkitdilər. Dirəklərin üstünə taxta döşədilər. İnsanlar burada yaraşıqlı evlər tikdilər. Daha sonra dənizdə quyu qazmağa başladılar.

Qara damcı bunları seyr etdikcə sevinirdi: «Hə yəqin insanlar dənizin dibinə, anam Qaraca göl üçün yol açırlar. Bu lap yaxşı oldu! O da işıqlı dünyaya çıxar, yerin altında qalıb darıxmaz».

Qazılan quyu Qaraca gölə çatan kimi buruqdan neft fantanı ucaldı. Adamlar fantanı bağladılar. Neft ayrıca borularla axıb, döşəmənin üstündəki iri qazanlara tökülməyə başladı. Sonra böyük bir yük gəmisi qazanlara yan alıb, oradakı nefti öz anbarına boşaltdı.

Qaraca gölün qara qızılı əvvəl gəmi, sonra da vaqonlarla yol gedib, neft təmizləyən zavoda çatdı. Burada ondan dumduru benzin, müxtəlif sürtkü yağları və əlvan boyalar hazırladılar. Bunları ayrıca qatarla avtomobil zavoduna göndərdilər.

Dəmirli daşlardan hazırlanmış avtomobilləri əvvəlcə yağlı boyalarla rənglədilər, sonra motoruna benzin tökdülər. Maşının sürtülən hissələrini yağladılar. Sürücü sükanın arxasına keçən gimi maşın uğuldayıb, yerindən tərpəndi. Rezin təkərlər sürətlə hərləndi. Yenicə ayaq açan maşın bir anda gözdən itdi.

Mənim balaca dostlarım! Yəqin siz də öz ata-ananızla birlikdə həmin maşına minmisiniz. Bu maşınla qonşu kəndə, uzaq rayonlara, bəlkə də dənizə çimməyə getmisiniz. Heç fikir vermisinizmi o, necə sürətlə gedir? Unutmayın ki, bu maşının hazırlanmasında metalçılarımızın, rezin qayıranların və neftçilərin böyük əməyi vardır. Bax, onların zəhməti sayəsində siz uzaq yolları sürətlə keçərək, gələcəyə doğru addımlayırsınız.

## LOVĞA GÜZGÜ

Mağazada yanları naxışlı qəşəng bir güzgü, bir də boz şüşədən televizor vardı. Güzgü lovğa və çoxdanışan, televizor isə sakit və qaradinməz idi.

Hər axşam satıcı mağazanı bağlayıb gedəndən sonra güzgü özünü tərifləməyə başlayardı:

-Saymışam, bu gün mənə düz on beş adam baxıb, özləri də lap yaxından. Bu mağazada elə bir şey yoxdur ki, onu mənim qədər sevsinlər. Hamı mənimlə maraqlanır, yanıma gəlir.

Bəzən belə söhbətlərdən sonra naxışlı güzgü üzünü televizora tutub soruşardı:

-Düzünü de, heç sənə baxan olub?

Sonra da televizorun cavabını gözləmədən dodağını büzüb deyərdi:

-Eh, sənə kim baxacaq! Bir şüşən var, o da bomboz!

Bir dəfə televizor güzgünün lovğalığına dözməyib dilləndi:

-Ay güzgü, sən burnunun ucundan uzağı görmürsən, ancaq mən uzaq-uzaq yerlərin şəkillərini, adamları, maşınları, hər şeyi göstərə bilərəm.

-Sən ha? Bu boz şüşənlə? -deyə güzgü gülməkdən özünü saxlaya bilmədi.

Günlərin birinda güzgünü də, televizoru da mağazadan alıb apardılar. Təsadüfən ikisi də bir evə düşdü. Evdəkilər arabir güzgüyə baxırdılar. Güzgü daha da özünü çəkir və lovğalanırdı. Ürəyində öz-özünə deyirdi: «Heç bilmirəm bu boz şüşəli

qutunu niyə alıb gətirdilər? O ki, heç şeyi göstərə bilmir. Özünü də tərs kimi mənimlə lap üzbəüz qoyublar».

Axşam hava qaraldıqda evdəkilər televizorun qarşısına yığışdılar. Bu, güzgünün xoşuna gəlmədi: -Bunlara bax, hamısı boz şüşəli qutunun dövrəsinə toplaşıblar. Heç mənə tərəf baxan da yoxdur. Görəsən orada nə görüblər?

Əyləşənlər televizorun qarşısını kəsdikləri üçün güzgü heç nə görə bilmədi.

-Ey, siz orada nə görmüsünüz? Mənim yanıma gəlin!-deyə bəzəkli güzgü civildədi. Ancaq onun səsini heç kəs eşitmədi. Axı, otağı televizordan gələn xoş musiqi səsi doldurmuşdu. Güzgü bir-iki dəfə də səsləndi. Ancaq heç kəs ona tərəf çevrilmirdi.

-Mənə baxın!-deyə lovğa güzgü var gücü ilə qışqırıb stolun kənarına tərəf əyildi və yerə düşüb çilik-çilik oldu.

Televizor isə öz işində idi. O, uzaq-uzaq ölkələrdən maraqlı əhvalatlar göstərirdi.

## MAŞIN AYAQQABILARI

Heç bilmirəm necə oldu ki, ayaqqabım deşildi. Əslinə qalsa buna özüm təqsirkaram. Yolda rastıma gələn daşı, kirəmid parçasını ayağımla vurub kənara atmamış getmirəm. Bu dəfə də belə oldu. Yolda qar əriyib gölməçə əmələ gətirmişdi.

Gölməçənin qırağında bir kirəmid parçası gözümə sataşdı. İstədim onu ayağımla elə vurum ki, gölməçənin üstündən uçub, küçənin o tayına düşsün. Var gücümlə kirəmidə bir təpik ilişdirdim. Ancaq ayağım elə ağrıdı ki, gözlərim qaraldı. Kirəmid parçası isə heç yerindən də tərpənmədi. İndi başa düşdüm ki, o donub yerə yapışıbmış. Mən ufuldayıb ayağıma baxdım. Botun ucu parçalanmışdı. Yun corabım görünürdü. Məni fikir apardı. İndi necə edim? Gölməçəni necə geçim? Axı, ayağımı ora basan kimi bot su ilə dolacaqdı.

Elə bu vaxt yanımda bir yük maşını dayandı. Kabinədən mənə sarı boylanan şoferi tanıdım. Bu qonşumuz Muxtar əmi idi. O mənə dedi:

-Nə var, Arif, niyə dayanmısan?

-Ayaqqabım deşilib, Muxtar əmi, - dedim,-qorxuram su dola.

O, kabinənin qapısını açdı:

-Gəl, əyləş! Maşınımın da ayaqqabısı yırtılıb. Gedirəm yamaq saldırmağa.

Qalxıb onun yanında oturdum. Maşın yola düşdü. Mən Muxtar əmidən soruşdum:

-Heç maşının da ayaqqabısı olar?

O, gülümsündü:

-Əlbəttə, olar,-dedi.-Elə bilirsən rezin ayaqqabı elə təkcə sənə lazımdır?! Maşınların da, trolleybusların da, hələ təyyarələrin də rezindən ayaqqabısı var. Təkərlər onların ayaqqabısıdır.

Muxtar əmi maşını zavodun sexinə gətirdi. Burada o qədər maşın təkəri vardı ki, heç sayıb qurtarmaq olmazdı. Fəhlələr təkərləri yapışqanlayıb yamayırdılar. Cavan bir mühəndis isə onların işinə göz qoyurdu.

Mühəndis mənimlə tanış olub, harada yaşadığımı, harada oxuduğumu xəbər aldı. Dostlaşdıq. Mən dağ kimi ucalan təkər yığınını göstərib:

-Bir gör şəhərimizdə nə qədər rezin işlənir, - dedim.

Mühəndis başını yırğaladı:

-Bu hələ harasıdır! Böyük bir dəniz gəmisinin hazırlanmasına 60 ton rezin sərf olunur. Hələ avtomobillərə, trolleybuslara gör nə qədər rezin işlədilir.

Mühəndisin söhbətindən öyrəndim ki, təzə rezin təkərləri Sumqayıt şəhərində düzəldirlər. Özü də neft qazlarından. Bu iş kimya elminin köməyi ilə görülür.

-Sumqayıtda çoxlu kimya zavodları var,-deyə başqa bir fəhlə söhbətə qoşuldu. O, dedi ki, insana yemək lazım olduğu kimi, bitkilərə də gübrə lazımdır. Onu tarlaya səpəndə məhsul bol olur. Sumqayıtdakı kimya zavodlarından biri də gübrə buraxır.

Sexdə mənə danışdılar ki, Azərbaycanda yaxın illərdə çoxlu kimya zavodları tikiləcək. Axı, kimya faydalı elmdir. İnsanlar onun köməyi ilə ağac ovxantısından ipək, qarğıdalı cecəsindən televizor qutusu düzəldirlər. Adi diş tozu da, əl sabunu da, geydiyimiz isti botlar da kimyanın köməyi ilə əldə edilir.

Elə mənim «yaralı» ayaqqabımı da kimya elmi sağaltdı. İndi dərin gölməçələrdən də rahat geçib gedirəm. Ancaq boynuma alım ki, daha yolda ayağımla heç nəyi vurmuram.

## QARA QIZIN EVCİYİ

Biri vardı, biri yoxdu, dünyada bir şaxta baba, bir də Günəş vardı. Ancaq onlar bir-birləri ilə heç yola getməzdilər. Elə ki, Günəş bir qədər uzaqlaşdı, şaxta baba nəvəsi Qar qızı da yanına salıb başlayardı meşələri, bağları, küçələri gəzməyə. Şaxta baba nəvəsi ilə çayları dondurar, dağlara qardan ağ papaq geyindirərdi. Qar qız da boş dayanmazdı. O, pəncərələrə, evlərin navalçalarına, dəyirmanın pərlərinə buzdan elə naxışlar salardı ki, baxan heyran qalardı.

Ancaq Günəş Şaxta babanın gəlişindən xəbər tutan kimi tələsik geri qayıdar, odlu nəfəsi ilə onu qovardı. O, Qar qızın vurduğu naxışları da əridib pozardı. Əlacsız qalan Şaxta baba hündür dağların başına çəkilər, Günəşin uzaqlaşmasını gözləyərdi.

Bəzən Şaxta baba üzünü Günəşə tutub deyərdi:

-Sən lap nahaq yerə hirslənirsən. Bir gör uşaqlar bizi necə sevirlər. Onlar naxış saldığımız yollarda xizəklə sürüşür, qardan adam düzəldirlər. Əkinçilər də, bağbanlar da mənim gəlişimlə sevinirlər.

-Sən əkinçinin, bağbanın nəyinə lazımsan, ay buz saqqal, - deyə Günəş daha da hirslənirdi.-Sən gələndə ağaclarda nə meyvə qalır, nə yarpaq. Yəqin gücün çat-saydı, onların köklərini də dondurardın. Otları, çiçəkləri saraldıb solduran sən deyilsənmi?

Şaxta baba:

-Mən torpağı dondurub zərərli cücüləri qırıram ki, məhsul bol olsun, - deyirdisə də, Günəş ona heç qulaq asmaq istəmirdi.

Beləliklə, uzun illər ötdü. Hər il dekabrın axırlarında Şaxta baba gəlir, martda isə Günəş onu yenidən qovurdu. Bir dəfə Şaxta baba hündür dağlara çəkiləndə

Qar qız dedi: -Baba, mən daha dağa getmək istəmirəm. Orada darıxıram. İstəyirəm şəhərdə qalıb uşaqlarla oynayım.

Şaxta baba:

-Bu mümkün deyil, bala,-dedi,-Günəş bizi əridər.

Ancaq Qar qız öz inadından dönmədi.

Şaxta baba fikirləşib dedi:

-Qoy mən insanlarla danışım, onlar çox ağıllıdırlar. Bəlkə, sənin üçün elə evcik düzəltdilər ki, yayda da burada qala bildin.

İnsanlar Qar qız üçün qəşəng evcik hazırladılar. Onu siz yaxşı tanıyırsınız. Adı soyuducudur. Qar qız soyuducuda boş oturmur, içəriyə qoyulmuş şeyləri buz kimi sərin saxlayır. O, uşaqları da çox sevir. Onlar üçün dadlı dondurma düzəldir.

Payızın sonunda biz soyuducunu söndürürük. O, soyuducudan çıxıb şaxta baba ilə görüşür. Onlar birlikdə küçələri dolaşır, evlərin pəncərələrinə buzdan naxış salırlar.

## SEHRBAZ

Üçüncü zəngin səsi təzəcə kəsilmişdi ki, sirkin işıqları söndü. Salona qaranlıq çökəndə doğrusu bir az qorxdum. Axı, eşitmişdim ki, sirkdə ayılar, pələnglər, şirlər də olur. Dedim, indi yəqin onlardan biri qəfəsdən çıxıb üstümüzə atılacaq. Ancaq bu vaxt dayım qulağıma pıçıldadı:

-Fərman, indicə işıqlar yanacaq. Bir sehrbaz əmi də gəlib fokus göstərəcək.

İstədim dayımdan soruşum ki, sehrbaz kimdir? Fokus nə olan şeydir? Ancaq buna vaxt olmadı. İşıqlar yandı. Qara paltarlı, ucaboy bir kişi ortaya çıxdı. O, əlindəki qarğını tamaşaçılara göstərib dedi:

-Bax, görürsünüzmü, bu boş qarğıdır. İndi onun içindən rəngbərəng parçalar çıxardacağam.

-Mən gözümü qarapaltarlı kişinin əlindəki qarğıya zilləmişdim. Doğrudan da, onun içərisi bomboş idi.

Sonra fokusçu kişi, biləklərini bir az da yuxarı çirmələdi. Döş cibindən bir karandaş götürüb, onunla qarğı parçasını döyəclədi, qarğının o biri ucundan üfürüb, içərisindən rəngbərəng parçalar, əlvan kağız zolaqları çıxarmağa başladı.

Sehrbaz əmi bundan sonra daha qəribə fokuslar göstərdi. O, gözümüzün qabağında boş qutudan bir dəstə göyərçin də çıxartdı.

Tamaşa qurtardı. Evimizə gedəndə yol uzunu dayıma suallar verirdim. Necə oldu ki, qutudan göyərçin çıxdı? Bəs o, qarğının içindəki rəngbərəng parçalar haradandır? Dayım başını bulayıb dedi:

-Eh, Fərman, sən əsil sehrbazı görsəydin, onda bilərdin ki, bütün bunlar boş şeylərdir.

Marağım bir az da artdı:

-Bəs sən deyən sehrbaz haradadır? O, necə fokus göstərir?

Dayım əlini paltomun altından görünən zolaq-zolaq köynəyimə toxundurub dedi:

-Bax, Fərman, sənin əynindəki bu köynəyi həmin sehrbaz düzəldib. Özü də bilirsən nədən? Odundan.

Mən bir dayıma, bir də əynimdəki ipək köynəyə baxdım. Doğrusu, inana bilmirdim ki, odundan da köynək çıxar.

-Hələ, bu harasıdır, -deyə dayım sözünə davam etdi,- sənin ayağındakı qaloşu, başındakı qulaqlı papağı da həmin sehrbaz tikib. Özü də qara neftdən.

Mənim heyrətim get-gedə artırdı. Dayım isə maraqlı sözlər danışırdı:

-Böyük bir şam ağacını kəsib doğrasan, ondan bir maşın odun çıxar. Ancaq mənim dediyim sehrbaz əlini bu oduna toxunduran kimi, o dönüb olur bir sandıq ipək corab.

-Bəs o sehrbazın adı nədir? - deyə tələsik xəbər aldım.

-Kimya.

Dayımdan xahiş elədim ki, sabah bilet alıb, məni Kimya əminin fokus göstərdiyi sirkə aparsın.

Dayım bu sözləri eşidəndə güldü. Sonra əlini çiynimə qoyub dedi:

-Yox, Fərman, kimyaya «əmi» demək olmaz, o elmdir. Böyüyəndə məktəbdə bu elmi də öyrnəcəksən. Ancaq sirk bileti ilə yox, kitabların köməyi ilə görəcəksən.

Yol boyu dayım kimyadan qəribə əhvalatlar danışdı. Dedi ki, kimya insanlara hər cür paltar, ayaqqabı ləzzətli yeməklər, yaxşı dərmanlar hazırlamağı öyrədir.

İndi bildim ki, sirkdə gördüyüm fokus, sehrbaz kimyanın yanında çox kiçik bir şeydir.

**SEMENT VƏ BAHAR**

Avtobus Qaradağdan keçib Bakıya yaxınlaşırdı. Yolun sağ tərəfində mavi Xəzər, sol tərəfində isə quru qayalıqlar uzanırdı. Mən gözümü dənizdən çəkə bilmirdim. Oradan əsən sərin külək isti yay havasında mənə ləzzət verirdi.

Birdən atam qolumdan yapışıb dedi:

-Ay Fərhad, elə səhərdən gözün dənizdədir. Yolun sol tərəfinə də baxsana.

-Orada baxmalı nə var ki?-deyə mən mızıldandım.-Hər yan boz qayalıqdır.

Bu dəfə atam dağın böyründə tüstülənən zavod bacalarını göstərdi:

-Bax, oğul, ora sement zavodudur. Orada daşları yandırır, sonra da boruya oxşayan o nəhəng sobada un kimi üyüdürlər. Yaxşı fikir versən görərsən ki, soba yavaş-yavaş hərlənir. Onun içində iri polad kürələr var. Soba hərləndikcə onlar içəridə yumalanır, yanmış daşları əzib üyüdür. Beləliklə, sement əmələ gəlir.

Bu zaman yanımızdan bir yük maşını ötdü. Sementlə dolu kisələr onun üstündə dağ kimi qalanmışdı. Atam dedi:

-Oğul, bilirsən bu boz rəngli sementdən nələr hazırlanır? Bilmirsən, hə? Onda qulaq as. Bax, sementdən əsil bahar çiçəkləri düzəldirlər. Ancaq onlar adi çiçəklər deyil. İçərisində minlərlə adam yaşayır.

Deyəsən atam mənə tapmaca danışırdı. Ancaq nə qədər fikirləşdimsə tapmacanı aça bilmədim.

Tezliklə avtobusumuz şəhərə daxil oldu. Bakının geniş küçələri, hündür binaları, gül-çiçəkli meydançaları bir-bir arxada qalırdı. Az sonra Bakıdan Sumqayıta gedən şose yoluna çıxdıq. Şəhəri keçib qurtarırdıq ki, birdən düzənlikdə bir-birinə oxşayan beşmərtəbəli binalar göründü. Onlardan biri çəhrayı, o birisi ağ, bir başqası mavi rəngdə idi. Küçəyə açılan eyvanları da sarı, yaşıl, göy idi.

Atam dedi:

-Fərhad, sənə dediyim bahar çiçəkləri bunlardır. O, evləri divarı başdan-başa sementdən hörülüb.

-Sement un kimi yumşaq tozdur. Ondan necə divar hörmək olar? -deyə atamdan soruşdum.

-Hə, iş ondadır ki, qabaqlar evi kərpicdən, ya da daşdan tikərdilər. Bu da çox vaxt apardı. İndi zavodlarda sementi çınqılla qarışdırır, böyük qəlib-lərə tökürlər. Qəlibdən xırda kərpic əvəzinə blok adlandırılan bütöv divar çıxır. Həmin blokları burda kranla bir-birinin üstünə qoyub, künclərini boltla bağlayırlar. İnşaatçılar onların içərisinə döşəmə vurur, pəncərələrə şüşə salır, divarları rəngləyirlər. Beləliklə, bir ayın içində gördüyün böyük uca binalar hazır olur.

Bu evlər doğrudan da bahar vaxtı düzlərdə açılan əlvan çiçəkləri xatırladırdı. Ancaq fərq onda idi ki, bunlar bir az ömür sürən adi çiçəklər deyil, insanın qüdrətli əli ilə qurulan gözəl binalar idi.

## ODLU ÇAY

Cırtdan bərk yorulmuşdu. Odur ki, köhnə dəmir çəlləyin içində uzanan kimi onu yuxu apardı. Bir də gözünü açanda özünü böyük bir həyətdə gördü. Cırtdan əvvəlcə bir az qorxdu. Sonra öz-özünə dedi:

-Bir öyrənim, görüm haradayam? Necə olub ki, mən bura gəlib çıxmışam.

Bu zaman həyətdə gəzişən gözətçi onu görüb soruşdu:

-Ay Cırtdan, sən hara, bura hara?

-Heç özüm də bilmirəm, necə olub ki, gəlib bura çıxmışam. Dünən çəlləkdə yatmışdım...

-Yəqin metal tullantısı yığan uşaqlar çəlləklə bərabər səni də gətiriblər... Hə, indi ki, gəlmisən, gedək, səni bizim boru prokat zavodunun işi ilə tanış eləyim.

Gözətçi Cırtdanın qolundan yapışıb, onu birinci sexə apardı. Burada bir-birinin yanında nəhəng sobalar düzülmüşdü. Ərimiş polad odlu çay kimi sobalardan axaraq böyük bir qəlbə tökülürdü. Hər tərəfə qığılcımlar uçuşur, istidən nəfəs almaq olmurdu.

-Bax, bunlar Marten sobaları adlanır,-deyə qoca od nəfəsli sobaları göstərdi.

Cırtdan onun söhbətindən anladı ki, qara metal tullantısını iri çuqun parçaları və yanmış əhənglə qarışdırıb, sobaya tökür, sonra qaz alovu ilə onları qızdırıb əridirlər.

-Bəs əhəng nəyə lazımdır?

-Oğlum, metal tullantısı paslı olur. Əgər onu əridəndə pası təmizlənməsə, onda həmin poladdan qayrılan şeylər çox kövrək olar, tez sınıb tökülər. Bunun üçün ərintiyə əhəng daşları qatılır. O, pası öz canına çəkir. Qaynayan ət qazanında kəf əmələ gələn kimi marten sobasında da şlak alınır. Sonra şlakı təmizləyib atırlar. Ərimiş polad tərtəmiz olur.

İkinci sexdə Cırtdan qəlibdən çıxan dördkünc polad parçalarını görüb təəccübləndi:

-Bunlar heç boruya oxşamır.

-Gördüyün dördkünc polad parçalarını bu sexdə yenidən qızdırır, nəhəng çəkiclə döyüb bərkidirlər. O biri sexdə həmin parçaları bir də qızdırır, dairəni qəliblərdən keçirib hamarlayırlar. Daha sonra o, üçüncü dəfə qızdırılır, xüsusi burğularla içərisi yonulur. Burada hər işi maşın görür. İnsanlar isə onları uzaqdan idarə edirlər. Axı, başqa cür mümkün deyildir. Ağırlıqı 3 tona çatan qızarmış polad parçasını kim çiyninə qoyub, bir sexdən başqasına aparar? Bu işi transportyor adlanan ötürücü lent görür. O. fırlanaraq od kimi qızarmış polad parçalarını aramsız axınla irəli aparır. Elə bil sexlərin içərisindən odlu çay axır. Axırda onlar gümüş kimi parıldayan borulara çevrilərək neftçilərə göndərilir.

Axşamüstü Cırtdan avtobusla Sumqayıtdan Bakıya qayıdırdı. O, zavodda gördüklərini həyət uşaqlarına necə danışacağını fikirləşdikcə, ürəyi fərəhlə döyünürdü.

## YER, AY VƏ İLDIRIM QANADLI AT

Belə nəql edirlər ki, çox qədim zamanlardan Ay ilə Yer yaxın dost idi. Onlar bir yerdə gəzər, bir yerdə oynayar, ucsuz-bucaqsız göyləri də bir yerdə dolaşarlarmış.

Bir dəfə necə olursa Ay lovğalanaraq Yerə deyir:

-Mən daha səninlə oynamaq istəmirəm. Gedəcəyəm ulduzların yanına. Onlar çoxdur, mən orada daha şən olaram.

-Belə iş tutma, əzizim,-deyə Yer cavab verir. Onu bil ki, min il yol getsən də ulduzlara çata bilməzsən. Onlar çox uzaqdırlar.

Ancaq Ay inadından dönmür.

-İndi ki, sözümə qulaq asmırsan, get,-deyə Yer öz dostuna acıqlanır. Ancaq peşman olsan, daha yanıma qayıtma.

Ay yola düşüb gedir. O, qırx gün, qırx gecə arxasına baxmadan ulduzlara doğru addımlayır. Ancaq heç ulduzlara yaxınlaşa bilmir. Onlar yenə əvvəlki kimi çox uzaqda idilər. Baxanda noxud boyda görünürdülər. Ay indi başa düşür ki, Yer doğru deyirmiş.

Ay bərk yorulur. Yol üçün götürdüyü yemək və su qurtarır. Hətta, burada ona udmağa hava da çatmır. Ay dostunun sözünə baxmadığına çox peşman olur. Ancaq daha geri qayıtmağa da üzü gəlmir. O, başını aşağı dikərək, utana-utana Yerin ətrafına dolanmağa başlayır. Ay elə güman edirdi ki, bəlkə Yerin ürəyi yumşaldı, onu yenidən öz yanına çağırdı. Ancaq Yer də öz inadından dönmür, vəfasız dostunun üzünə belə baxmaq istəmir.

Beləliklə, Ay uzun illər Yerin başına hərləndi. O, yavaş-yavaş qocaldı, üzündə dərin qırışlar əmələ gəldi. Nəhayət, üzünü Yerə tutaraq, gileylənməyə başladı:

-Əzizim, axı, hər halda biz köhnə dostuq, niyə mənimlə maraqlanmırsan, heç dərdimi soruşmursan?

Doğrusu, Yerin də ürəyi yumşalmışdı. O, Ayla barışmaq istəyirdi.

-Yaxşı, daha sənin təqsirindən keçirəm, qayıt gəl yanıma, -deyə Yer razılaşdı.

-Yox, qocalmışam, qıçlarım daha sozümə baxmır. Özüm də xəstəyəm. Yaxşısı budur, sən mənim yanıma gəl.

Bu zaman Yer əziz övladı olan insanları cağırıb dedi:

-Gedin, Ayı yoxlayın, görün, onun xəstəliyi nədir?

Ay qaşqabağını turşutdu:

-Eh, özün yanıma gəlmirsən, insanları göndərirsən. Onlar mənim çəçələ barmağım boydadır, yanıma necə gəlib çıxacaqlar?

-Görünür, sən insanların gücünə bələd deyilsən. Onlar sənin qırx günə getdiyin yolu üç gündə keçib sənə çatarlar.

Yer bu sözü deyib qurtarmamış, burun deşiklərindən ildırımlar çıxan şimşək qanadlı at Aya tərəf uçmağa başladı. O, elə yeyin uçurdu ki, bir gün yarımdan sonra aya çatdı.

Ay birdən gözünü açıb gördü ki, ildırım qanadlı bir at onun sinəsində çapır. Atın alnından almas kimi parıldayan bir polad vımpel asılmışdı.

-Sən haradan gəlib çıxdın, adın nədir? -deyə Ay təəccüblə soruşdu.

-Məni insanlar göndərmişlər, adım da Raketdir,-deyə şimşək qanadlı at kişnəyə-kişnəyə cavab verdi. -Tezliklə onlar özləri də səni yoluxmağa gələcəklər.

Ayın qaşqabağı açıldı. İndi o, həm köhnə dostu Yerin sədaqətinə, həm də onun övladları insanların gücünə inanmışdı.

## YAŞIL SÜNGÜ

Min illərlə bundan əvvəl küləklə çöl bir-birlərinə düşmən kəsilmişdi. Azğın külək çölə göz verib işıq vermirdi. Hər il payızın axırında külək öz köməkçisi şaxtanı yer üzərinə göndərirdi. Şaxta yarpaqları tökər, çiçəkləri soldurar, bulaqları dondurardı. Bundan sonra külək uğuldayaraq çöllərdə at çapardı. Elə əsər, elə əsərdi ki, otları kökündən çıxarıb atardı.

Babalarımız çöllərdə taxıl əkərdilər. İlk payız yağışlarından sonra taxıl göyərər, yaşıl don geyərdi. Tezliklə bu yaşıl zəmilər pambıq kimi ağ qarla örtülərdi.

Elə bu zaman özünü yetirən şaxta taxılları dondurmağa can atardı. Ancaq qar örtüyü yaşıl zəmini isti yorğan kimi qoruyardı. Əlindən bir iş gəlməyən şaxta hirslənib, küləyi köməyə çağırardı. Zalım külək çöldəki qarı süpürüb aparar, yaşıl zəmi şaxtaya dözməyib donardı.

Bahar keçib getməmiş yenə külək çöllərin altını üstünə çevirərdi. Bu dəfə o, odlu nəfəsi ilə quraqlıq gətirər, çayları qurudar, otları saraldardı. Qoyun sürüləri yeməyə bir çəngə ot tapmaz, susuz çöldə ilanlar mələşərdi...

Bəzən də bu susuz çöllərdən dəvə karvanları keçərdi. Dəvələrin boynundan asılmış zınqırovlar şikayətlə səslənər, yolçular küləyin sovurduğu qumdan qorunmaq üçün baş-gözlərini sarıyardılar.

Beləliklə uzun illər ötüşdü. Külək susuz çöldə öz bildiyini elədi.

Bir dəfə çölə çoxlu adam gəldi. Onlar buraya dəvə karvanları ilə deyil, maşınlarla gəlmişdilər.

Bu adamlar traktorla, ekskavatorla çöldə kanal qazımağa başladılar.

Külək əvvəlcə təəcübləndi, sonra ucadan qəhqəhə çəkib güldü:

-Qazın, qazın, siz kanal çəkin, mən onu ikicə gündə qumla dolduraram.

Ancaq insanlar küləyin hiyləsini başa düşmüşdülər. Onlar qazıdıqları kanala yoğun sement borular düzdülər. Deyəsən, insanlar suyu yerin altı ilə aparmaq istəyirdilər.

Külək, insanların ona kələk gəldiyini görərək bərk qəzəbləndi. O, uğuldaya-uğuldaya kanal qazıyanların üstünə atıldı. Lakin insanlar ondan əsla qorxmadılar. Traktorların və ekskavatorların kabinəsində oturaraq pəncərələri möhkəm bağladılar, öz işlərini davam etdirdilər.

-Yaxşı, sizinlə qışda hesablaşaram!- deyə külək acıqlı-acıqlı nərildədi.

Payız gəldi, kanal qazıyanlar çöldə cərgələrlə ağac əkdilər. Ensiz meşə zolaqları çölü eninə və uzununa paxlava kimi kəsib keçdi.

-Sən bunların işinə bax -deyə külək lap özündən çıxdı. - Mən dənizi elə dalğalandıraram ki, nəhəng gəmilər taxta parçası kimi atılıb düşər. İri qum təpələrini bir ovuc toz kimi bu yandan-o yana sovururam. İndi adamlar bu yaşıl çör-çöplə mənim yolumu kəsmək istəyirlər. Ay-hay!..

Tezliklə ilk qar yağdı. Onun ardınca şaxta gəldi. Külək hiddətlə coşub nərildəməyə başladı.

Qəribə işdir, külək, nə qədər əsib coşsa da taxılın üstünü örtən qarı sovura bilmədi. Axı, təzə əkilmiş yaşıl ağaclar küləyin yolunu kəsmişdi.

Külək bütün qışı, hələ üstəlik yazı və yayı də əsdi. Ancaq bircə sünbülü də quruda bilmədi. Yaşıl meşə çovğunlara, küləklərə sinə gərib dayandı.

İndi heç bir quraqlıq ağaclar üçün qorxulu deyildi. Axı, insanlar yeraltı kanalın suyu ilə tez-tez onları suvarırdılar.

Günlər, aylar ötüşdü, meşə boy atıb böyüdü. Bu yaşıl ağaclara baxanda adama elə gəlirdi ki, çöl, azğın küləyin yolunu kəsmək üçün saysız-hesabsız yaşıl süngü götürmüşdür. Bəli, insan əli ilə salınmış meşələr acı küləklərin yolunu həmişəlik kəsdi. Dən tutmuş dolu sünbüllər çöldə dəniz kimi dalğalanmağa başladı...

## POLAD BİLƏK

Payız seli dərəyə bərk gurultu salmışdı. Su iri daşları yumalayır, onlar toqquşub parçalanırdı.

Həmişə çayın sakit zümzüməsini eşitməyə adət etmiş dağın səbri tükəndi. O, qaşqabağını turşudub dedi:

-Canım, bu nə gurultudur, salmısan. Qulağım lap batdı ki...

Çay acıqlı-acıqlı dilləndi:

-Çoxdan məni bəndə salmısan. Amma sağında, solunda çöllər susuzluqdan yanır. Sən isə qabağımı saxlamısan, qoymursan ki, onları sulayım. Dərə ilə axıb qamış basmış gölə tökülürəm. Heç kəsə fayda verə bilmirəm.

Dağ qəhqəhə çəkdi.

-Ha, ha, ha... mən də deyirəm, bu niyə belə hirslənib? Axı, sənə nə düşüb ki, çöllərin dərdini çəkirsən? Öz yolunla ax, get. Mənimlə işin olmasın. Görürsən ki, dünyanın yarısı boydayam. Mənə nə ildırımın gücü çatar, nə də sənin.

Çayın lap səbri tükəndi.

-Boş yerə lovğalanırsan, ay dağ. Sən nə qədər qüdrətli olsan da, insanlar səni yıxacaq.

Dağ yenə razılaşmadı:

-İnsanların da gücünü görmüşəm. Odur, qayalarımın kölgəsində nə qədər sınıq bel tiyəsi, paslı külüng var. Neçə dəfə gliblər ki, sinəmi yarıb sənin suyundan aparsınlar, ancaq bacarmayıblar. Xeyli alın təri tökəndən sonra çıxıb gediblər.

Bu söhbətdən bir neçə gün sonra dağın yanına bir dəstə adam gəldi. Onlar özləri ilə bir neçə maşın da gətirmişdilər. Dağın ətəyində çadır qurdular. Dağ onlara heç fikir də vermədi. Ona elə gəlirdi ki, bunlar turistlərdir.

Adamlardan biri qayanın altındakı paslı külüngləri və bel tiyələrini görüb yoldaşına dedi:

-Görünür, vaxtı ilə babalarımız da bu dağı yarıb, su içmək istəyiblər, gücləri çatmayıb. Axı belə nəhəng dağı bunlarla yarıb parçalamaq olmazdı. Ertəsi gün maşınlardan biri dağa yaxınlaşdı. O, polad pəncəsini uzadıb, dağı ovmağa başladı. Dağ yenə öz-özünə gülümsədi:

-Mən boyda dağı belə oyun-oyuncaqla sökmək olmaz. Bir az eşələnib yorulacaqsınız.

İnsanlar isə yorulmaq nə olduğunu bilmirdilər. Onlar ekskavatorla dağı uçurur, yük maşınları ilə torpağı uzağa daşıyırdılar.

Bir neçə gün keçdi. Ekskavatorun polad pəncəsi dağın yarısını sökmüşdü ki, birdən o, sərt daşlara toxundu. Dağın özəyi möhkəm qranitdən idi.

Ekskavator daha burada bir iş görə bilməzdi. O geri çəkiləndə dağ qəhqəhə ilə gülüb dedi:

-Hə necə oldu, niyə dayandınız? İndi qazın görüm necə qazırsınız?

Ancaq insanlar geri çəkilmək fikrində deyildilər. Onlar qranit qayaları burğulayıb, oyuğlara dinamit qoydular. Sonra fitilin ucunu yandırıb, oradan uzaqlaşdılar. Dağ yenidən qəhqəhə çəkdi:

-Hə, belə qaçarlar a! Mənim gücümü gördünüz?!

Ancaq o, sözünü tamamlaya bilmədi. Elə gurultu qopdu ki, dağ yerindən silkələndi. Onun sinəsi yarıldı çayın  köpüklənən suları buradan keçib düzənliyə sarı üz qoydu. Bu dəfə çayı gülmək tutdu:

-Hə, nə oldu, ay lovğa dağ? İndi inandın ki, səndən də güclüləri var?!

Dağ inildəyib dedi:

-Bu polad biləkli, polad pəncəli maşınlar, bir də dinamit olmasaydı, heç kəs mənə bata bilməzdi.

Çay dağın sözlərinə cavab verməyir, şırıltı ilə axıb gedirdi.

## DAŞKƏSƏN

O geçə yuxum gəlmirdi. Qatar uzaq yolları keçərək Kirovabad şəhərinə yaxınlaşdıqca mənim də sevincim artırdı. Yataqda o tərəf, bu tərəfə çevrilərək uca dağlar qoynunda yerləşən Daşkəsən şəhəri haqqında düşünürdüm. Axı, ilk dəfə idi ki, Daşkəsənə gedirdim.

Səhərə yaxın məni yenicə yuxu aparırdı ki, atamın səsini eşitdim:

-Aydın, dur geyin, indicə düşüb avtobusa minəcəyik.

Yarım saatdan sonra biz artıq yoldaydıq. Avtobus dağların sinəsi ilə uzanan asfalt yolla irəliləyirdi.

Dumana bürünmüş uca dağların arxasından günəş yenicə baş qaldırırdı. Avtobusumuz bir neçə daş tuneldən keçərək Daşkəsənə çatdı. İlk dəfə nəzərimi cəlb edən uca bir bina oldu. Oradan gələn gurultu çox uzaqlara yayılırdı.

-Aydın, sənə dediyim filiz-saflaşdırma kombinatı, bax budur,-deyə atam əlini uca binaya uzatdı.

Mən daha bu barədə atamdan heç nə soruşmadım. Axı, atam mənə demişdi ki, polad şeylərin hamısı dəmir filizindən hazırlanır. Daşkəsəndə çıxarılan maqnitli dəmir filizi isə lap əla keyfiyyətlidir. Ancaq hər halda filiz yerdən təmiz halda çıxmır. Ona qum, daş, torpaq qatışmış olur. Ona görə də filizi domna peçində əritməzdən qabaq onu bu gərəksiz qatışıqdan təmizləmək lazım gəlir. Elə filiz-saflaşdırma kombinatı da bu işi görür.

Atamın iş yerinə getmək üçün biz, başqa bir maşına mindik. Yaşıl ağaclarla əhatə olunmuş yaraşıqlı evlər bir-bir arxada qalırdı. Biz şəhərdən xeyli uzaqlaşmışdıq ki, əlində balaca qırmızı bayraq olan bir fəhlə bizi dayandırdı.

- Buradan o yana keçmək olmaz,-dedi,-Bax gördüyünüz bu təpəni indicə partladacaqlar.

Bir azdan bir-birinin ardınca bərk gurultu eşidildi. Uzaqdakı yastı təpənin zirvəsi toz və tüstüyə büründü. Toz yatandan sonra biz yolumuza davam edərək atamın iş yerinə getdik.

Təpənin döşündə dayanmış iri bir ekskavator çalovunu filizlə doldurub, yük maşınlarına boşaldırdı. Maşınlar isə muncuq kimi bir-birinin ardınca düzülərək kombinata doğru tələsirdi.

Dərənin o tayından filiz-saflaşdırma kombinatına tərəf kanat yolu uzanırdı. Zənbilə oxşayan xırda vaqonlar kanatdan asıla-asıla irəliləyirdi. Elə bil burada dağlar, daşlar, təpələr cana gəlmişdi. Hər yerdə qızğın iş gedirdi. İnsanlar nəhəng maşınlarla dağları sökür, parçalayır, onu vaqonlarla, maşınlarla uzaqlara daşıyırdılar. Atamdan öyrəndim ki, Daşkəsəndə dəmir filizindən başqa qiymətli mədənlər də vardır.

Bu zaman dəmir filizi ilə dolu bir maşın yanımızdan ötüb keçdi. Mən maraqla atamdan soruşdum:

-Ata, bəs təmizlənmiş dəmir filizini hara aparırlar?

-Aydın, təmiz filiz qatarla Gürcüstanın Rustavi şəhərinə yollanır. Orada gürcü dostlarımız filizi əridib polad qayırırlar. Sonra hazır polad bizim Sumqayıt şəhərinə göndərilir. Orada isə həmin poladdan borular qayrılır.

Atam sözünü belə tamamladı:

-Görürsənmi, oğlum, poladın əridilməsi bizi gürcüstanlı dostlara daha yaxın etmişdir. Bundan başqa Mingəçevir su-elektrik stansiyasının enerjisi dostluğumuzu daha da möhkəmləndirmişdir. Hələ Abşeron qazı! Bu qaz üç respublikanı bir-birinə daha da yaxınlaşdıran dostluq kəməri vasitəsi ilə Tibilisiyə, Yerevana gedir, sənaye müəssisələrində və mənzillərdə yanır...

-Bəli, oğlum... bizim dostluğumuz polad kimi möhkəmdir!

## QATAR DƏNİZDƏN KEÇİR

Elə fikirləşin ki, siz səhər yuxudan duranda evinizin başqa yerə köçdüyünü görürsünüz. Yəqin ki, əvvəlcə gözlərinizə inanmayacaqsınız. Sizə elə gələcək ki, bu yuxudur. Elə deyilmi?

Bax, mənim başıma buna oxşar bir hadisə gəlmişdir. Ancaq evdə yox, dəmir yolu vaqonunda. Deyə bilərsiniz ki, vaqon ev deyil, onun altında təkərləri var. Bu düzdür. Ancaq orası da var ki, vaqon ancaq relsin üstü ilə gedə bilir. Relsi isə torpaq yolda qurmaq olar. Bəs dəmir yolu qatarı dənizdə üzə bilərmi? Deyəcəksiniz yox. Amma...

Bir dəfə anamla birlikdə qatarda yol gedirdik, təkərlər elə bil ki, nəğmə oxuyurdular: taq-taraq, taq-taraq..

Mən bu nənəyə qulaq asa-asa, özüm də bilmədən yuxuya getdim.

Səhər yuxudan oyananda anamı yanımda görmədim. Tez dikəlib oturdum. Təkərlərdən səs gəlmirdi. Deyəsən qatar dayanmışdı. Vaqonun pəncərəsindən boylandım. Ətrafda ucsuz-bucaqsız dənizdən başqa heç bir şey görünmürdü. Mənə elə gəldi ki, qatar dənizin yanında dayanıb. Ancaq vaqonun o biri tərəfindəki pəncərədən baxanda da dənizdən başqa bir şey gözə dəymirdi.

Bu nədir? Yoxsa qatar suya düşüb?

Doğrusu, əvvəlcə qorxdum. Sonra pəncərədən boylanıb, bir də ətrafa baxdım. Anam aşağıda, pəncərənin qabağında dayanıb dənizə tamaşa edirdi. O, məni görcək ucadan səsləndi:

-Səlim, tez geyin, düş aşağı!

Vaqonun pilləkənindən göyərtəyə enəndə təəccübdən danışa bilmədim. Qatarın bütün vaqonları böyük bir gəminin üstündə düzülmüşdü. Ancaq qatarımızı çəkib aparan elektrovoz yox idi. Adamlar gəminin göyərtəsində gəzinir, ucadan söhbət edirdilər. Gəmi isə dalğaları yara-yara gedirdi. Dənizdən əsən külək adama ləzzət verirdi.

Anam məni gəminin içərisindəki aşxanaya apardı. Orada iştahla nahar etdik. Anamdan öyrəndim ki, bu gəmi qatarımızı bir sahildən o biri sahilə aparır. Belə gəmilərə «bərə» deyilir.

Günortaüstü bərəmiz sahilə yan aldı. Gəminin ucu sahildəki körpü ilə birləşdi. Bu zaman körpünün üstü ilə bərəyə keçən elektrovoz, qatarı çəkib sahildəki dəmir yoluna çıxardı. Az sonra qatar yenə relslərin üstü ilə gedir, təkərlərdən «taq-taraq, taq-taraq» səsləri gəlirdi.

Bizim Xəzərdə belə gəmilər işləyir. Onlar qatarları Bakıdan Krasnovodsk limanına aparır. Gəmi vaqonları on saata Xəzərin bu tayından o tayına keçirir. Qatar dənizin kənarı ilə dolana-dolana Bakıdan Krasnovodsk şəhərinə çatmaq üçün azı üç gün yol getməli olardı. Bir görün bərə yolu nə qədər qısaldır.

Mən, yay tətilində qatara minib, «Sovet Azərbaycanı» bərəsi ilə türkmənistanlı dostlarıma qonaq gedəcəyəm.

## KÜLƏK, TÜSTÜ VƏ KAĞIZ

Təpənin dalında yatmış külək gecəyarısı oyandı. O, gərnəşdi, əsnədi, sonra uğuldayıb dedi:

-Boş dayanmaqdan fayda yoxdur, nə qədər ki, adamlar yatıblar, qoy mən də şəhərin havasını təmizləyim. Buludları da buraya qoyum ki, yağış ilə küçələri yusunlar.

Külək şəhərə tərəf üz qoydu. Əvvəlcə bacalardan çıxan tüstünü qovub uzaqlaşdırdı. Sonra küçələrin tozunu süpürdü. Axırda gəlib parka çatdı. Burada güllərin arasında ilişib qalmış bir parça qəzet onun gözünə sataşdı.

-Bura sənin yerin deyil, çıx get!-deyə külək var gücü ilə onu üfürdü.

Qəzet parçası çiçəklərdən yapışıb küləyə yalvarmağa başladı:

-Külək qardaş, mənimlə işin olmasın. Yerim lap rahatdır. Qoy bir az mürgüləyim.

-Dedim ki, olmaz. Sən güllüyü zibilləyirsən-deyə külək onu qovdu. Qəzet parçası havaya qalxdı. Sapı qırılmış çərpələng kimi löngər vura-vura hündürdə uçmağa başladı. Bu zaman o, öz-özünə düşünürdü: nahaq yerə mən havaya qalxmağa razı olmurdum. Gör şəhər buradan nə gözəl görünür. Lampalar ulduz kimi sayrışır. Bəh-bəh, hündürə uçmaq əcəb yaxşıdır!

Birdən o, zavod bacasından çıxan tüstünün içinə düşdü. Qəzeti öskürək tutdu: «Öhö-öhö, lap gözlərim yaşardı. Bu qara tüstü haradan gəlib bura çıxıb? Aman, nəfəsim tutuldu».

Tüstü boğuq bir səslə dedi:

-Sən nahaq yerə şikayətlənirsən, əslinə qalsa, biz lap yaxın qohumuq. Qəzet parçası tüstünü qovmaq üçün üz-gözünü yelləyib dedi:-Biz hardan qohum olduq ki?

Tüstü üz-gözünü turşutdu:

-Bir üstündəki yazılara bax, sonra danış.

Qəzet başını buladı:

-Bu yazıların sənə nə dəxli var.Onları maşında çap eləyiblər.

-Hə, iş ondadır ki,-deyə tüstü səsini ucaltdı. - Bax, qara boyaq olmasaydı, onda nə qəzet, nə də jurnal çap olunardı. Həmin qara boyağı da insanlar məndən düzəldiblər. Onlar hisə yağ qatışdırıb, çap maşını üçün boyaq hazırlayırlar.

Qəzet parçası hirsləndi:

-Demək, mənim üstümə ləkə salan sənsən? Ax, yaramaz. Demək, sən olmasaydın mən qar kimi ağ qalardım. Gör bir üst-başımı necə ləkələmisən.

Tüstü razılaşmadı:

-Elə bunun üçün hirslənirsən? Axı, ağ kağız kimi qalsaydın, heç kim sənin üzünə baxmazdı. Üstündəki yazılar, o şəkillər olmasaydı, səninlə kim maraqlanardı? Elə...

Tüstü sözünü qurtara bilmədi. Külək onu qovub uzaqlaşdırdı. Qəzet parçası rahat nəfəs alıb gülümsədi. Hərlənə-hərlənə bir az yuxarı qalxdı. Aşağıda lampalar ulduz kimi sayrışır, dəniz ay işığında gümüş kimi parıldayırdı.

Qəzet parçası sevinirdi. O, ömründə ilk dəfə idi ki, belə yüksəklərə qalxmışdı.

-Sağ ol, külək. Sən məni yüksəyə qaldırdın. Mən nə qədər yeni şeylər öyrəndim.

Ancaq külək onu eşitmədi. Bir də küləyin vaxtı harada idi ki, belə söhbətlərə qulaq assın. O, uğuldayaraq şəhərin havasını təmizləyir, küçələri yumaq üçün yağış buludlarını qova-qova gətirirdi.

## CANLI SAAT

Mart ayının ortaları idi. Hələ yaz girməmişdi. Amma havalar xoş keçirdi.

Bir gün səhər tezdən məni tıqqıltı səsi yuxudan oyatdı. Kim isə pəncərəmi döyürdü. Təəccübdən yerimdəcə dondum. Axı, mən ikinci mərtəbədə yaşayırdım. Küçədən buraya heç kimin əli çatmazdı ki, pəncərəmi döyə bilsin.Yataqdan qalxdım. Birdən məni gülmək tutdu. Nə görsəm yaxşıdır?

Payızda pəncərənin çərçivəsinə pambıq tıxamışdım ki, evə soyuq dolmasın. Bəzi yerlərdə pambıq o tərəfə çıxmışdı. Bir sərçə çərçivəyə qonaraq pambığı dartışdırırdı. Görünür o, özünə yuva qurmaq istəyirdi. Arabir onun dimdiyi şüşəyə toxunur, «tıq, tıq, tıq» səsi gəlirdi.

Mən xeyli güldüm və yenidən yatağıma uzandım. Sərçə isə hər səhər bu qayda ilə məni yuxudan oyadırdı.

Yaz gəldi. Ana sərçə pəncərəmdən çıxartdığı pambıqdan taxtapuşda özünə isti bir yuva qurmuşdu. O tez-tez yuvadan uçur, balalarına qurd-quş gətirirdi. Daha pəncərəmi döymürdü.

Bir gün yoldaşlarım məni balıq ovuna getməyə çağırdılar. Mən həvəslə razı oldum. Onlar ayrılanda dedilər:

-Ancaq səhər alaqaranlıqdan dur ha, yoxsa balıq tuta bilmərik.

Evə gələndə məni fikir götürdü. Necə edim ki, yuxuya qalmayım? Tərs kimi zəngli saatım da yox idi.

Birdən ana sərçə yadıma düşdü. Axı, qabaqlar, o, hər səhər məni yuxudan oyadardı.

Xeyli fikirləşdim. Axırda bir çarə tapdım. Pən-cərəmi açıb, bayır tərəfdən şüşənin kənarlarındakı çorçivələrə çörək qırıntısı səpdim və yenidən pəncərəni örtdüm. Çarpayımı da lap pəncərənin qabağına çəkib, yatağıma uzandım. Məni yuxu apardı.

-Tıq, tıq, tıq!

Pəncərəmi kim isə döyürdü.

Səhər yenicə açılırdı. Göy üzü lalə kimi qızarmışdı, amma günəş hələ çıxmamışdı. Mən pəncərəyə boylandım. Sərçə məni görmürdü. O, çərçivəyə tökülmüş çörək qırıntılarını həvəslə dimdikləyirdi.

-Çox sağ ol, sərçə, məni lap vaxtında oyatdın!-dedim və tez geyinib evdən çıxdım.

O gün çoxlu balıq tutdum.

## AY HƏKİMİ

Gecəyarısı Alim ata yuxudan oyandı. Pəncərədən süzülən Ay işığı düz onun gözlərinə düşürdü.

-Çox qəribədir,-deyə Alim ata düşündü.- Ayın  rəngi necə də solmuşdur. Deyəsən xəstələnib.

O durub pəncərəni açdı. Diqqətlə Aya baxdı. Bir parça qara bulud Ayın üzünü örtdü. Ay görünməz oldu.

Alim ata öz-özünə dedi:

-Ay yaman qocalıb, üz-gözü qırış-qırışdır. Bir gör yazıq nə kökə düşüb. Gərək onun dərdini öyrənəm.

Alim atanın üç oğlu vardı. Səhər o, oğlanlarını yanına çağırıb dedi:

-Oğlanlarım, Ay gözümə çox tutqun görünür. Onun dərdini öyrənə bilərsinizmi?

Böyük oğlan dedi:

-Mənim bir qutum var. Adına radio deyirlər. Onun qulağı minillik yoldan səs eşidə bilir. Radionu quraram. O, Ayın necə nəfəs aldığını eşidər, biz də xəstəliyini öyrənərik.

Ortancıl oğlan dedi:

-Mənim də bir sehrli güzgüm var. Adına televizor deyirlər. O, minillik yoldan şəkil çəkib, yerə göndərə bilir.

Kiçik qardaş dedi:

-Mənim isə bir atım var. Quş kimi qanadlıdır. İldırımdan da iti gedir. O, minillik yolu bircə gündə gedə bilər. Adına raket deyirlər.

Alim ata oğlanlarını dinləyib sevindi:

-Çox yaxşı,-dedi,-belə sehrli qutu, sehrli güzgü və raket atla nəinki Ayın, lap ulduzların da dərdindən xəbər tutmaq olar. Qoy Raket Aya tərəf uçsun, radionu və sehrli güzgünü də özü ilə aparsın. Biz də yerdə Ayın həm nəfəsini eşidərik, həm də şəklini çəkərik. Onun dərdini tapmaq da lap asan olar.

Oğlanlar razılaşdılar. Böyük qardaş özünün sehrli qutusunu, ortancıl qardaş isə sehrli güzgüsünü götürdü. Onlar kiçik qardaşdan soruşdular:

-Bəs sənin Raket atın haradadır?

O dedi:

-Buradan xeyli uzaqda Baykonur adlı bir dağ var. Mənim atım onun lap zirvəsindədir.

Bəli, qardaşlar üç gün, üç gecə yol gedib, həmin dağa çatdılar. Raket at dağın lap başında dayanmışdı. Kiçik qardaş əlini sehrli atın yalına çəkib dedi:

-Ey mənim Raket atım, Alim ata Ayın dərdindən xəbər tutmaq istəyir. Sən Ayın yanına uç, qoy sehrli qutu ilə, sehrli güzgü ordan yerə xəbər göndərsin.

Bu sözlər oğlanın ağzından çıxar-çıxmaz Raket at elə kişnədi ki, səsindən qayalar titrədi. At qanadlandı. Onun burnundan güclü alov çıxdı, görən deyərdi vulkan püskürür.

Böyük və ortancıl qardaş indi bildilər ki, kiçik qardaş öz atını niyə əldən-ayaqdan uzaq olan Baykonun dağında saxlayırmış.

Bəli, Raket az getdi, üz getdi, Aya yetişdi. At qanad açıb Ayın dövrəsinə dolanmağa başladı. O, belə edirdi ki, sehrli qutu ilə sehrli güzgü onu hər yandan görüb eşidə bilsinlər.

Alim ata Ayın səsini eşidib, şəklini görəndə çox sevindi. Bir yandan sevinirdi ki, Ayın dərdinə əlac tapıb onu sağaldacaq. Bir də onu sevindirən oğlanlarının məharəti idi.

## DANIŞAN DAŞLAR

Bu hadisə çoxdan olmuşdur. O, vaxtdan on min il, bəlkə də on beş min il geçir. Ancaq bu əhvalat dildən-dilə, ağızdan-ağıza düşərək bu günə qədər gəlib çıxıb.

Cavan bir oğlan dağın döşündəki cığırla atını çapırdı. O, gün batmamış özünü uzaqdakı kəndə çatdırmalı idi. Axı, neçə-neçə adam onunla uzaq kənddə yaşayan qohumlarına sifariş göndərmişdir. Oğlan atını ağacın kölgəsində saxlayıb dincəlmək istədi. O, çox fikirli göründü. Deyəsən, sifarişləri bir-birinə qarışdırmışdı. Axı, 30-40 adamın tapşırığını yerli-yerində yadda saxlamaq asan iş deyil.

Oğlan xeyli fikirləşdi, ancaq sifarişlərin bəzisi yadından çıxmış, bəzisinin də kimə çatdırılacağını unutmuşdur. Axır ki, o, əlacsız qalıb geri qayıtmalı oldu…

Siz yəqin fikirləşirsiniz: bəs o, adamlar atlı ilə sifariş əvəzinə məktub niyə göndərmirdilər? Axı, belə olsaydı, məktubları sahiblərinə çatdırmaq heç də çətin olmazdı. Ancaq iş ondadır ki, o zaman insanlar yazı nə olduğunu bilmirdilər.

Bir çox illər ötüb keçdi. Çay sahilindəki gilli yerlərdə, mağaraların divarlarında, qayaların üstündə ilk yazılar görünməyə başladı. Ancaq onlar yazıdan çox şəkli xatırladırdı. Məsələn, əlində ox, yay tutmuş adam-ovçu, qaçan maral-ov, iki üç ağac şəkli isə meşə demək idi. Belə yazılar heroqlif adlanırdı.

Bir müddət sonra insanlar heroqlifdən əl çəkməli oldular. Çünkü bütün fikirləri, məsələn, adam adlarını, şəkli yazı ilə vermək olmurdu. Bu dəfə mıx şəkilli işarələrdən istifadə olunmağa başladı. Deyək ki, yan-yana çəkilmiş iki mıx “yol” demək idi. Onların üstündə köndələn bir çəkilsəydi, bu “körpü” sözünü əvəz edirdi. Həmin mıxlar “D” hərfi şəklində düzüləndə isə “ev” mənası alınırdı:

Beləliklə, dildə olan bütün sözləri bildirmək üçün minlərlə işarə yaratmaq lazım gəldi. Mixi yazılar dünyanın bir çox ölkələrində indi də saxlanılır. Orada şagirdlər əlifbanı üç-dörd ilə öyrənirlər. Axı, əlifbanın özü sözlərin necə yazıldığını öyrənmək deməkdir.

Nəhayət, adamlar gördülər ki, ayrı-ayrı sözlərin şəklini yadda saxlamaq çətin məsələdir. Odur ki, fikirləşib-fikirləşib əlifba yaratdılar. İndi heç kəs bilmir, ilk əlifbanı kim yaradıb. Ancaq onu bilirik ki, bu qədim Yunanıstanda olmuşdur. Əlbəttə, ilk əlifba heç də sizin indi oxuduğunuz hərflərə bənzəmirdi. Onlar kobud və yaraşıqsız idi. Ancaq get-gedə onun şəklini dəyişdilər. Hərflər həm aydın, həm də yaraşıqlı olmağa başladı. Nəhayət, sizin bu gün gördüyünüz əlifba yarandı.

Elə bilməyin ki, əlifba yaranan kimi adamlar qalın kitablar yazmağa başladılar. Sizin bu gün sevə-sevə oxuduğunuz şəkilli kitablar, əlifba yaranandan xeyli sonra meydana gəlmişdir. Çox qədimlərdə insanlar yazını daşların üzərinə yazardılar. Sonra gilin üstünə yazıb odda bişirirdilər. Beləliklə, «Saxsı kitab» alındı. Sonra bitki qabıqlarından, heyvan dərisindən, ağ parçalardan da kağız əvəzində istifadə edildi. Nəhayət, kağız yarandı.

Ancaq insanlar kağız düzəltməyi öyrənəndən neçə yüz il sonra da kitab çap edilmirdi. O vaxt kitablar əl ilə yazılırdı. Yaxşı xətti olan bir adam illərlə çalışıb, bir kitabın üzünü səliqə ilə köçürürdü. Ona görə də qədim vaxtlarda kitab çox baha idi. Məsələn, bir kitaba 5-6 inək almaq olardı. Sonra daş yazı yarandı. Bunun üçün daşın üstündə əllə hərflər qazılır, daşa rəng çəkilib üstünə kağız basılırdı. Beləliklə, daşdakı hərflərin şəkli kağızın üstünə düşürdü. İndi kitabı bir yox, bir neçə yüz ədəd düzəltmək olardı. Ancaq daş çapının da əziyyəti çox idi. Bir görün sizin oxuduğunuz kitabın hər səhifəsində neçə yüz hərf, nöqtə və vergül var. Bunların hamısının şəklini bir daşın üstündə qazımaq üçün azı bir ay vaxt lazım idi.

Axır ki, kitab çap eləyənlər qurğuşundan hərflər düzəltməyi öyrəndilər. Onları yan-yana düzməklə istənilən sözü almaq olur. Ayrı-ayrı sözlər, cümlələr, onlar da bütöv səhifələri əmələ gətirir. Qurğuşun hərflərdən düzələn belə səhifənin üstünə rəng çəkib kağıza basanda, olur kitab səhifəsi. Əlbəttə bu, hərfləri daşda qazımaqdan yüz qat asandır.

İndi qurğuşun hərfləri əllə deyil, maşınla düzürlər. Bu, işi çox asanlaşdırır. Görürsən, dünən gecə ölkədə baş verən bir əhvalat elə gecə ikən qəzetdə dərc olunur. Səhəri gün isə biz onu oxuyuruq.

Əlbəttə, insanlar dünən baş verən əhvalatlarla birlikdə uzaq keçmişi də öyrənmək istəyirlər. Bunu isə daş qayalarda yazılmış köhnə yazıları oxumaqla bilmək olur. Deməк, yazılı qayalar, həm də uzaq keçmişə bizə nəql edən, danışan daşlardır.

## SU HAQQINDA HEKAYƏT

Atam həmişə deyərdi:

-Su qəzəblənəndə heç üzünü görmə! Bircə anda aləmi xaraba qoyar.

Ancaq düzü heç anlaya bilmirdim, stəkanda sakit-sakit dayanan bu təmiz su nə edib ki, atam onun barəsində belə danışır. Ancaq görünür atam nə isə bilirdi. Axı, o, su mühəndisi idi.

Bir dəfə qışda bərk soyuqlar keçirdi. Belə günlərdə atamın işi lap çox olurdu. Görürdün ki, axşam evə gələndə ayaqqabısının qarını təmizləyə-təmizləyə deyir:

-Yenə bu gün düz üç həyətdə su kəməri partlamışdı, onu düzəldənə kimi nə qədər əlləşməli olduq.

Mən atamdan soruşdum:

-Axı, su kəməri öz-özünə niyə partlayır?

O, oxuduğu qəzetdən bir an ayrılıb mənə baxdı. Sonra nəyi isə xatırlayıb dedi:

-Bir dənə butulkanı su ilə doldur, qoy çölə. Gör səhər nə görərsən.

Tez ayağa qalxdım. Balaca bir ətir şüşəsi tapıb onu su ilə doldurdum, aparıb qar basmış eyvanımızın bir küncünə qoydum.

Gecə yuxuda mənə elə gəldi ki, çöldə nə isə partladı. Səhər nə görsəm yaxşıdır? Su donub buza çevrilmiş, şüşə isə parça-parça olmuşdu.

Atamdan öyrəndim ki, su donanda şişir. Elə kəmərlər də bu səbəbdən partlayır. Odur ki, qışda su borularını qalın keçəyə büküb donmaqdan qoruyurlar.

Bir dəfə də evimizdə samovar qaynayırdı. Onun qapağından qalxan buxar yamanca səs-küy qoparmışdı. Bu vaxt atam nə isə fikirləşdi. Kağızdan balaca bir fır-fıra kəsdi. Qəribədir. Onu samovarın üstündən çıxa buxara yaxınlaşdıran kimi fırfıra hərlənməyə başladı.

Mən sevinib ələrimi şappıldadır, samovarın dövrəsində hərlənib atamdan xahiş edirdim ki, fırfıranı mənə versin.

Fırfıranı atamdan alıb xeyli oynatdım. Sonra samovardan qalxan buxar azaldı, get-gedə onun dızıltısı kəsildi. Fırfıra da elə bil yorulub dayandı. Atam dedi:

-Su qaynayanda da elə bil qəzəblənir. O, sanki qabın darlığından şikayətlənir, uçub getmək istəyir. Ancaq insanlar suyun bu xassələrindən istifadə etməyi çoxdan öyrəniblər. Məsələn, əkinçilər payız aylarında torpağı şumlayırlar. Sonradan soyuqlar düşür. Torpağa hopmuş su gecələr donub buza çevrilir. Bu zaman o şişir, şumdakı iri kəsəklər yavaş-yavaş dağılıb ovxalanır. Beləliklə, torpaq yumşalır. Yazda oraya əkilən bitkilər daha sürətlə böyüyüb boy atır, onların kökü dərin qatlara işləyir. Suyun qaynayarkən qəzəblənməsi də insanların xeyrinədir. Parovozlarda, teplo-xodlarda, istilik-elektrik stansiyalarında qaynar buxar çarxları hərəkətə gətirir. Beləliklə, «qəzəblənən su» insanları uzaq-uzaq şəhərlərə aparır, mənzilləri, küçələri işıqlandırır.

Bu yaxınlarda maraqlı bir əhvalat oxudum. O, buxar ilə işləyən nasos barəsindədir. İstəyirəm onu siz də biləsiniz. Danışım, qulaq asın.

Bu əhvalat düz iki yüz il bundan qabaq olmuşdur. O vaxt Cems Uatt adlı bir alim buxarla işləyən nasos yaratmışdı. O, daş kömür mədənlərinə dolmuş suyu çəkib çölə boşaltmalı idi. Həmin vaxta qədər bu işi atın gücü ilə işləyən nasoslar görürdü.

Uatt yeni nasosu mədən sahibinə göstərdikdə o, gülüb başını buladı:
Bu ki, uşaq oyuncağıdır,-dedi-o, bir gündə nə qədər iş görə bilər? Alim sahibkarı başa salmağa çalışdı ki, yeni nasos atla işləyən nasosdan daha çox iş görə bilər. Ancaq sahibkar inanmadı. O, hətta Cems Uattla mərc gəldi ki, buxar nasosu heç vaxt atla işlədilən nasosdan çox su çıxara bilməz. Axşam sahibkar mehtərlərə tapşırdı ki, atı mümkün qədər yaxşı yedizdirsinlər və rahatlasınlar. O, mərci udacağına əmin idi. Səhəri gün hər iki nasos işə salındı. Sahibkar fəhlələri tələsdirib deyirdi:- Atı dayanmağa qoymayın.

Cəld tərpənin! Ancaq bir-iki saatdan sonra at yoruldu. Buxar nasosu isə dayanmadan işləyirdi. Axı, o, canlı deyildi ki, istirahət etməli olsun. Nəhayət, at yıxılıb öldü. Buxar nasosu isə işləməkdə davam edirdi... Artıq həmin vaxtdan iki yüz il keçir. Ancaq buxar maşınları indi də insanlara diqqətlə xidmət göstərir. Bəli, su, insanların yaxın köməkçisinə çevrilmişdir.

**KİTABIN İÇİNDƏKİLƏR**

Dəmirli daşlar ..............................................................3
Ağacın göz yaşları ........................................................4
Qaraca göl ...................................................................6
Lovğa güzgü ................................................................8
Maşın ayaqqabıları ........................................................9
Qar qızın evciyi ...........................................................11
Sehrbaz..........:...........................................12
Sement və bahar ..........................................................14
Odlu çay ....................................................................16
Yer, ay və ildırım qanadlı at..........................................17
Yaşıl- süngü ...............................................................19
Polad bilək...................................................................21
Daşkəsən .....................................................................23
Qatar dənizdən keçir......................................................25
Külək, tüstü və kağız.....................................................26
Canlı saat ....................................................................28
Ay həkimi ...................................................................29
Danışan daşlar...............................................................31
Su haqqında hekayət......................................................34

**Redaktoru Z.Qarayev**

**Rəssamı Ş. Həsənov**

**Bədii redaktoru Y. Ağayev**

**Texniki redaktoru A. Axundov**

**Korrektorları S. Həbibzada, A. Məlikzadə**

**Yığılmağa verilmiş 25/1V-1967-ci il. Çapa imzalanmış 16/V1II-1967-ci il. FQ 18370. Kağız formatı S4x108Vm- Çap v. 2,05. Uçot nəşr. v. 2,6. Sifariş 231. Tirajı 1OOOO. Qiyməti 8 qəp.**

**Azərbaycan SSR Nazirlər Soveti yanında Mətbuat Komitəsi. . "Gənclik" nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4.**
**„Qızıl Şərq" mətbəəsi, Bakı, Həzi Aslanov küçəsi, 80.**